# Azərbaycan Cənubi Qafqazda mina problemindən ən çox əziyyət çəkən ölkədir

**"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin təşkilatçılığı ilə dekabrın 4-də "Minalardan Azad Cənubi Qafqaz" regional kampaniyası çərçivəsində "Cənubi Qafqazda mina qurbanları ilə həmrəylik: Cənubi Qafqazda minaların və onların nəticələrinin ləğvi strategiyasının mühüm sütunu" mövzusunda "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Milli Məclisin deputatları, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA), Ombudsman Aparatı, QHT-lər və beynəlxalq ictimaiyyətin nümayəndələri, o cümlədən Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri və Aİ-yə daxil olan altı ölkənin səfiri, eləcə də minadan zərərçəkənlər iştirak ediblər.

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan 30 ildən artıqdır mina problemi ilə üz-üzədir. "Azad edilən ərazilərdə aparılan işlər nəticəsində bir milyondan çox minanın basdırıldığı məlum olub. İşğal zamanı yalnız burada deyil, İranla sərhəddə də minalar basdırılıb. Azərbaycan hazırda Cənubi Qafqazda minalardan ən çox əziyyət çəkən ölkədir. Ümidvaram ki, ölkələr mina problemi ilə əlaqədar daha diqqətli olacaqlar. Biz 44 günlük Vətən müharibəsindən sonra, demək olar ki, hər gün mina qurbanları barədə xəbərlər alırıq", - deyə İctimai Birliyin sədri qeyd edib.

"LİNKS Europe" təşkilatının direktoru Dennis Sammut qeyd edib ki, Azərbaycana minatəmizləmə sahəsində göstərilən yardım, görülən işlər problemin çərçivəsinə adekvat deyil. Gələn il donor təşkilatları Azərbaycana dəvət olunacaq və mümkün qədər daha böyük işlərin görülməsinə çağırışlar ediləcək.

Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri Peter Mixalko Azərbaycanın bu gün Cənubi Qafqazda mina problemindən ən çox əziyyət çəkən ölkə olduğunu vurğulayıb: "Çalışırıq ki, Azərbaycana problemin həlli ilə bağlı əlimizdən gələn qədər kömək edək. Mina problemi siyasi məsələ deyil, humanitar məsələdir. Avropa İttifaqı Azərbaycanda mina probleminin aradan qaldırılmasında maraqlıdır. Lakin bu, çox uzun bir prosesdir".

ANAMA-nın Maarifləndirmə, Beynəlxalq və İctimaiyyətlə Əlaqələr İdarəsinin Beynəlxalq əlaqələr və donorlarla iş bölməsinin müdiri Rövşən Kərimov nəzərə çatdırıb ki, Agentlik humanitar minatəmizləmə işləri çərçivəsində 110 hektar ərazini mina və hərbi sursatlardan təmizləyib: "ANAMA minatəmizləmə işlərində kifayət qədər təcrübə qazanıb. 44 günlük müharibədən sonra 18 mindən çox tank əleyhinə, 30 mindən çox piyada əleyhinə minalar, 56 mindən çox silah-sursat qalıqları aşkar edilərək zərərsizləşdirilib".

Daha sonra mina qurbanları yaşadıqları problemlərlə əlaqədar tədbir iştirakçılarını məlumatlandırıb, mina problemi ilə mübarizədə beynəlxalq təşkilatlara çağırışlar ediblər.

Tədbir sözügedən problemlərin müzakirəsinə həsr olunmuş panel iclasları ilə davam edib.

Azərbaycan.- 2023.- 5 dekabr, № 265.- S.8.